**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**KÖNÜL İLYASXAN qızı HEYDƏROVA**

# AZƏRBAYCAN DRAMATURGİYASINDA ZADƏGAN OBRAZLARI: SOSİAL MÜHİT VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR KONTEKSTİNDƏ ( 1890 – 1920-Cİ İLLƏR )

**5716.01 – Azərbaycan ədəbiyyatı**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**B A K I - 2018**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Qara Mustafa oğlu Namazov**
*filologiya üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Cəlil Qərib oğlu Nağıyev**
*filologiya üzrə elmlər doktoru, professor*

**Leyla Kamran qızı Məmmədova**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı təşkilat:** **Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsi**

Müdafiə "___" __________ 2018-ci il saat "__" -da Bakı Dövlət Universiteti nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyalarının müdafiəsini keçirən D.02.181 Dissertasiya Şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı, Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, əsas bina, II mərtəbə, Videokonfrans otağı.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "____"____________2018-ci ildə göndərilmişdir.

**D.02.181 Dissertasiya Şurasının**
**elmi katibi, fəlsəfə üzrə**
**elmlər doktoru, professor əvəzi:** **Mətanət Əli qızı Abdullayeva**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında yazılmış dram əsərləri sovet dövründə geniş, dolğun tədqiq edilsə də, həmin dramlarda canlandırılan zadəgan obrazları birtərəfli araşdırılmış, milli özünüdərk, sosial mühit fonunda, milli-mənəvi dəyərlər kontekstində isə tədqiq olunmamışdır. Sovet ideologiyasının tələblərinə uyğun olaraq bəzi fikirlər zərərli ideoloji düşüncə kimi təqdim edilmişdir. Azərbaycan cəmiyyətinin bir əsrə qədər aparıcı, hərəkətverici təbəqəsi olan zadəgan zümrəsinin obrazlaşdırılmış həyatının, qələmə alınmış zadəgan obrazlarının daha dolğun, hərtərəfli, obyektiv, sırf ideoloji baxış olmadan tədqiq olunmasına ehtiyac, tədqiqata cəlb olunacaq məsələlərin yetərincə öyrənilməməsi mövzunu aktual, zəruri edən başlıca səbəbdir. Sovet dövründə zadəganlığa istismarçı sinif kimi baxılırdı. Məhz elə bu səbəblərdən də yazılı ədəbiyyatda obrazlaşdırılan XIX - XX əsrlər Azərbaycan zadəganına münasibət birmənalı olmamış və deməli, həmin mövzu tədqiqatlardan, elmi araşdırmalardan da kənarda qalmışdır.

Bunu da qeyd etmək yerinə düşər ki, XIX - XX əsrlər Azərbaycan zadəganı cəmiyyətdə əsas mövqeyi olan sosial qrup idi. Zadəgan silki təkcə imtiyazlı təbəqə kimi deyil, həm də əsas ziyalı təbəqə kimi Azərbaycanın mədəni, sosial, ictimai həyatına təsir edirdi. Həmin dövr zadəgan dünyagörüşü, zadəgan mədəniyyəti ümumazərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsidir.

Klassik Azərbaycan dramaturgiyasının bu və ya digər aspektlərdən müstəqillik dövründə yenidən elmi-nəzəri səviyyədə öyrənilməsi lazım gəlir. Həmin dram əsərlərinin ideya-bədii qaynaqlarını yenidən araşdırıb, onun sənətkarlıq problemlərinin yeni müstəvidə təhlil olunması vacib məsələlərdəndir.

Bu tədqiqat işində dram əsərlərində obrazlaşdırılmış zadəganlığın sosial mühit və milli-mənəvi dəyərlər kontekstində araşdırılması müasir ədəbiyyatşünaslıq üçün aktual bir mövzudur. Dissertasiya bu yönümlü ilk tədqiqat əsəridir.

**Mövzunun işlənmə dərəcəsi.** Bu dissertasiya işində N.Vəzirovun, Ə.Haqverdiyevin, S.S.Axundovun, N.Nərimanovun, A.Şaiqin, C.Məmmədquluzadənin, H.Cavidin, C.Cabbarlının, Ü.Hacıbəylinin əsərlərində olan zadəgan obrazları, onların həyat tərzi, yaşadıqları sosial mühit, sosial mühitlə milli-mənəvi dəyərlər arasındakı ziddiyyətli məsələlərin araşdırılması nəzərdə tutulmuşdur. Həmin müəlliflərin yaradıcılığı, onların hər birinin bu dövrdə qələmə aldığı əsərlər və həmin

əsərlərdə olan qəhrəmanlar ayrı-ayrı aspektlərdən müxtəlif tədqiqatçılar tərəfindən tədqiq edilmişdir. Belə elmi araşdırmaların nəticəsi olaraq bu qəbildən olan problemləri əhatə edən zəngin elmi-nəzəri irs yaranmışdır. Bu elmi-nəzəri irsin yaranmasında K.Məmmədov [1], F.Qasımzadə [2], R.Hüseynov [3], Mir Cəlal [4], R.Sadıqov [5], H.İsrafilov [6], T.Mütəllimov [7], Y.Qarayev [8], N.Əzizova [9], T.İsmayılov [10], C.Əliyev [11], M.Məmmədov [12], X.Əlimirzəyev [13], İ.Həbibbəyli [14], R.Əlimirzəyeva [15] kimi elm xadimləri və tədqiqatçılar nəslinin böyük əməyi vardır. Lakin zadəgan obrazları kompleks şəkildə birmənalı olaraq heç bir tədqiqat əsərində araşdırmaya cəlb olunmamışdır. Aparılmış tədqiqatlarda dövrün ideoloji tələblərinə uyğun fikirlər çoxluq təşkil edir. Müstəqillik dövründə də tədqiq etdiyimiz dövrün zadəgan obrazları ictimai mühit və milli-mənəvi dəyərlər kontekstində tədqiq edilməmişdir.

---

[1] Məmmədov K. Ə.Haqverdiyev. Bakı: UşaqGəncNəşr, 1955, 196.
[2] Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Maarif , 1966.
[3] Hüseynov R. Cəfər Cabbarlının tarixi dramlarının səhnə təcəssümü. Bakı: Maarif, 1971.
[4] Mir Cəlal. Klassiklər və müasirlər. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1973.
[5] Sadıqov R. C.Cabbarlının yaradıcılığının ilk dövrü (1915-1920). Bakı: Elm, 1985.
[6] İsrafilov H. Azərbaycan daramaturgiyasının inkişaf problemləri. Bakı: Elm, 1988.
[7] Mütəllimov T. Əbdürrəhim bəy Haqverdiyevin poetikası. Bakı: Yazıçı, 1988
[8] Qarayev Y. Tarix: yaxından və uzaqdan. Bakı: Sabah, 1995.
[9]Əzizova N. Hüseyn Cavid dramaturgiyasında qadın tipləri və Cavidin məhəbbət konsepsiyası. Bakı: Elm, 2005.
[10] İsmayılov T. Cəlil Məmmədquluzadənin "Anamın kitabı" dramı" : Fil. elm. nam... dis. avtoref. Bakı, 2005.
[11] Əliyev C. Azərbaycan komediyasının poetikası. Bakı: Elm, 2007.
[12] Məmmədov M. Əbdürrəhim bəy Haqverdiyevin həyat və yaradıcılığı. Bakı: Nurlan, 2008.
[13] Əlimirzəyev X. Klassiklırimizin ideal və poetik dünyası. 2 cilddə, II c., Bakı: Elm və təhsil, 2009.
[14] Həbibbəyli İ. Cəlil Məmmədquluzadə - milli istiqlal ədəbiyyatının sərkərdəsi. "Xalq qəzeti", Bakı, 2010, 27 yanvar.
[15] Əlimirzəyeva R. Nəriman Nərimanovun yaradıcılığında maarifçi ziyalı problemi. Bakı: Elm və təhsil, 2010.

**Tədqiqatın obyekti** Azərbaycan ədəbiyyatında 1890-1920-ci illərdə yazılmış dram əsərləridir. N.Vəzirovun "Müsibəti–Fəxrəddin", "Pəhlivanani-zəmanə", Ə.Haqverdiyevin "Dağılan tifaq", "Bəxtsiz cavan", "Ağa Məhəmməd şah Qacar", "Millət dostları", S.S.Axundovun "Tamahkar", "Dibdat bəy", "Türk birliyi", "Laçın yuvası", N.Nərimanovun "Nadir şah", "Nadanlıq", "Dilin bəlası, yaxud, Şamdan bəy", C.Məmmədquluzadənin "Anamın kitabı", H.Cavidin "Maral", C.Cabbarlının "Aydın", Ü.Hacıbəylinin "O olmasın, bu olsun", A.Şaiqin "Tələbə həyatı" əsərlərindəki zadəgan obrazları təhlil obyektidir. Bu əsərlərin hər biri obrazlaşdırılmış zadəgan həyatı, zadəgan-mülkədar mühiti haqqında tutarlı dəlillər verir.

**Tədqiqatın predmeti** 1890-1920-ci illər Azərbaycan dramaturgiyasındakı zadəgan obrazlarının sosial mühit və milli-mənəvi dəyərlər konteksində öyrənilməsindən ibarətdir. Predmetin mahiyyətini təkcə zadəgan həyatının təsviri deyil, eyni zamanda bu zümrənin digər zümrələrlə qarşılıqlı münasibətləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycan dramaturgiyasında canlandırılan zadəgan obrazlarının, bu obrazları təşkil edən subyektlərin, cəmiyyətə həmin obrazların təsirinin araşdırılmasından ibarətdir. Burada həmçinin tarixi zadəganlığın bədii işlənmə səviyyəsi tədqiqata cəlb olunmuşdur. Bu məqsəd aşağıdakı konkret vəzifələrin yerinə yetirilməsi zəruriliyini ortaya çıxarmışdır:

– Həmin dövrdə yazılmış dram əsərlərinə əvvəlki dövr dram əsərlərinin təsirini öyrənmək;
– sosial mühitin milli-mənəvi dəyərlərə təsiri məsələlərini araşdırmaq;
– konkret əsərlərdə zadəgan obrazlarını tədqiq etmək;
– müxtəlif müəlliflərin eyni məzmunlu əsərləri arasında paralellər aparmaq;
– zadəgan obrazlarının oxşar və fərqli cəhətlərini göstərmək;
– sovet dövrü tədqiqatlarında mənfi obraz kimi qəbul olunmuş surətlərin obyektiv tədqiq olunması;
– tənqidçilərin tədqiq olunan dövrə münasibətini araşdırmaq.

**Tədqiqatın mənbələri.** Respublikada və digər ölkələrdə nəşr edilmiş kitablar, elmi işlər və məqalələr, konfrans və seminar materialları, rəsmi sənədlər, alimlərin araşdırmaları, internetdə yerləşdirilmiş uyğun tipoloji materiallar mənbə kimi istifadə olunmuşdur.

**Tədqiqatın metodoloji əsasını** geniş elmi təhlillər üçün imkan yaradan tarixi-müqayisəli, müqayisəli-tipoloji, həmçinin təsviri metodlar təşkil edir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya 1890-1920-ci illərdə Azərbaycan ədəbiyyatında yazılmış dram əsərlərində canlandırılan zadəgan obrazlarının bir arada, sosial mühit və milli-mənəvi dəyərlər kontekstində araşdırıldığı ilk tədqiqat əsəridir.

Həmin dövr zadəganlığı birmənalı olaraq zadəgan dünyagörüşü baxımından araşdırılmamışdır. Ayrı-ayrı müəlliflərin bizim tədqiq etdiyimiz dövrün dram əsərlərinə müraciəti sırf sovet ideologiyasına əsaslanmışdır. Bu isə onların məsələyə obyektiv yanaşmasına mane olmuşdur.

Bu tədqiqat mövzuya yanaşma baxımından milli düşüncə tərzində qələmə alınan ilk monoqrafik işdir.

Dissertasiyada zadəganlığın milli məfkurəyə xidməti, milli kimliyin formalaşmasında rolu, cəhalətlə mübarizəsi, müstəqil dövlət quruculuğunda olan funksiyası araşdırılmışdır.

Tədqiqat işi qarşıya qoyulmuş məqsəd və vəzifələri əhatə edərək aşağıdakı elmi yenilikləri özündə ehtiva edir:

– qədim ənənələrə söykənən zadəganlıq mövzusu XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında, xüsusilə dramaturgiyada aparıcı xətt olmuşdur;

– ilk dəfə olaraq zadəgan obrazları monoqrafik araşdırma obyektinə çevrilərək sistemli şəkildə öyrənilmişdir;

– tədqiq obyekti olan əsərlərə müasir baxış prizmasından yanaşılmışdır;

– bu araşdırma ilə ədəbiyyatımızın qaranlıq, az öyrənilmiş sahəsi ətraflı işıqlandırılmışdır;

– dünya ədəbiyyatındakı zadəgan obrazları ilə milli dramaturgiyamızdakı zadəgan obrazları arasında paralellər aparılaraq oxşar və fərqli cəhətlər üzə çıxarılmışdır;

– tədqiqat işinin yeni elmi araşdırmalara zəmin olması düşünülür.

**Tədqiqatın nəzəri-təcrübi əhəmiyyəti.** Bu tədqiqat işi zadəganlıq mövzusunun ədəbiyyatımızda işlənmə səviyyəsini öyrənmə baxımından mühüm nəzəri əhəmiyyət kəsb edir. Məhz elə bu səbəbdən tədqiqat işi gələcəkdə eyni istiqamət üzrə tədqiqat aparacaq gənc filoloqlar üçün istiqamətverici mənbə ola bilər. Həmçinin dissertasiyanın materiallarından əsərləri tədqiqata cəlb olunmuş müəlliflərin yaradıcılığının tədqiqi zamanı

baza kimi yararlanmaq olar. Bu əsərdən tədris vəsaiti kimi istifadə oluna bilər.

Tədqiqatın müddəalarından ali və orta məktəblər üçün tədris proqramlarının, dərs vəsaitlərinin tərtibində istifadə oluna bilər. Elmi iş həmçinin həmin əsərləri səhnələşdirəcək rejissorlar üçün qəhrəmanlara yeni yanaşma tərzi aşılaya bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasında yerinə yetirilmişdir. Mövzu BDU-nun Elmi Şurasında və AMEA-nın Nizami Gəncəvi adına Azərbaycan Milli Ədəbiyyatı muzeyinin "Ədəbiyyatşünaslıq üzrə Problem Şurası"nda təsdiq olunmuşdur.

İşin əsas məzmunu AAK-nın tövsiyə etdiyi xarici ölkələrin və Respublikanın müxtəlif elmi jurnallarında, Respublika elmi-nəzəri, elmi-praktik konfranslarında, beynəlxalq simpoziumlarda 8 məqalə və 5 tezis şəklində dərc olunmuşdur.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi "Giriş", üç fəsil, "Nəticə" və "İstifadə olunmuş ədəbiyyat" siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun müasir ədəbiyyatşünaslıq üçün elmi-nəzəri aktuallığı, problemin işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, obyekti, predmeti, elmi yeniliklərin məqamları, nəzəri-metodoloji əsasları, elmi-nəzəri və praktiki əhəmiyyəti müəyyənləşdirilmişdir. Həmçinin burada tədqiqat işinin strukturu nəzərdən keçirilmiş, elmi işin məzmunu haqqında ümumi müddəalar qeyd olunmuşdur.

**Tədqiqatda açar anlayışlar.** Dram əsərlərində olan zadəgan obrazlarını araşdırmadan öncə tədqiqat əsərində işlənən bir sıra terminləri aydınlaşdırmağa ehtiyac duyulur.

**Zadəganlıq** – orta əsrlərdə feodal cəmiyyətin əsasını təşkil edən xüsusi imtiyazlı ali zümrə. Zadəgan titulları (knyaz, baron, qraf, dvoryan, ser, xan, ağa, bəy və s.) irsi və bağışlanmış (hər hansı bir xidmətə görə) ola bilər.

**Zadəgan** – cəmiyyətdə müəyyən imtiyazlara və səlahiyyətlərə malik yüksək ali kübar və ya artistokrat təbəqəsini təmsil edən şəxslərin ümumi adı.

**İctimai mühit** – hər hansı bir reformasiya zamanı formalaşmış və cəmiyyətin bütün təbəqələrini əhatə edən sosial, siyasi, mədəni düşüncənin vəhdətindən ibarətdir. İctimai mühit təcrid olunmuş bir sistem deyildir. O, daim qarşılıqlı mübadilə şəraitində formalaşır.

**Milli-mənəvi dəyərlər** – hər bir xalqı digər xalqların assimilyasiyasından qoruyan, tarix boyu formalaşmış, özünəməxsus, müqəddəs adət-ənənələrinin məcmusudur.

Birinci fəsil **"Azərbaycan zadəganlığı və ictimai mühit"** adlanır və iki yarımfəsildən ibarətdir. **"Dram əsərlərinin yazıldığı ictimai mühit"** adlanan birinci yarımfəsildə tədqiq olunan dövrün ictimai-siyasi vəziyyətinə nəzər salınmış, o zamankı siyasi quruluş, ictimai vəziyyət, ədəbi mühiti təşkil edən obyektlər, canlandırılan hadisələrin xronologiyası, obrazların tipoloji xüsusiyyətləri, müəlliflərin bədii əksetdirmə özəllikləri, cəmiyyətin psixoloji məqamları aydın, tam dolğun təhlil edilmiş, onlara obyektiv qiymət verməyə çalışılmışdır.

Tədqiq olunan dövrlə müasir dövr arasında olan əlaqəni aşkarlamaq, həmin dövrdə yazılan əsərlərə hadisələrin təsirini öyrənmək əsas məqsəd kimi qarşıya qoyulmuşdur.

Tədqiq olunan dövrdə maarifçilik ideyasının azərbaycançılıq ideyasına zəmin yaratması diqqəti cəlb edir. Xalqın milli şüurunun oyanışı və azadlıq mübarizəsinə qalxması üçün iqtisadi cəhətdən güclü, siyasi cəhətdən yaxşı təşkil olunmuş milli burjuaziyanın mövcudluğu mühüm şərtdir. Bu çətin ictimai-siyasi vəziyyətdə milli zadəgan silki formalaşmağa başladı.

Həmin dövr Azərbaycan xalqının taleyində mühüm əhəmiyyət kəsb edən keşməkeşli, ziddiyyətli, ictimai-ədəbi fikirlərin inkişafı baxımından ən zəngin bir dövrdür. Bu dövr Azərbaycan xalqının bir millət kimi formalaşması, ədəbiyyatda ikinci intibah dövrünün başlanması kimi xarakterizə olunur.

N.Vəzirov, Ə.Haqverdiyev, S.S.Axundov, C.Məmmədquluzadə, N.Nərimanov, A.Şaiq, Ü.Hacıbəyli, C.Cabbarlı, H.Cavid kimi əbədiyaşar sənətkarların yaradıcılığının ideya-bədii koloriti, ictimai təsir gücü çox qüvvətli idi. Bu dövrdə yazılmış əsərlər tarixi reallığa ədəbi-bədii məcrada yaradıcı münasibət olmaqla bərabər, həmin dövrün ictimai-siyasi, milli-bədii ideyalarının öyrənilməsi baxımından əhəmiyyət daşıyır. Bu dövr həm də milli birlik, bütöv vətən ideyalarının gəlişdiyi bir dövrdür. Bu fikirlərin inkişaf dinamikasına nəzər saldıqda kuliminasiya nöqtəsinin C.Məmmədquluzadənin "Anamın kitabı" dramında cəmləşdiyini görmək olar.

Azərbaycan xalqının ictimai-milli şüurunda, mədəni həyatında, siyasi təfəkküründə baş verən inkişaf prosesləri öz əksini bədii ədəbiyyat nümunələrində parlaq şəkildə tapmışdır. "XIX əsrin II yarısı Azərbaycan yazarları-ədiblər, şairlər, dramaturqlar o dövrün bütün ictimai-siyasi,

mədəni-mənəvi mühitinin barometri kimi öz əsərlərində Azərbaycan həyatında baş verən mühüm hadisələri bu və ya digər dərəcədə realistcəsinə təsvir edirdilər."[1]

XIX–XX əsrlərin qovuşuğu Azərbaycan ictimai–tarixi və ədəbi–mədəni mühitində əsl intibah dövrüdür. Belə ki, Azərbaycan tarixinin bu mühüm dövrü uzun illər keçmiş sovet dönəmində birtərəfli, obyektiv cəhətdən tam əhatə olunmayan, bəzən qərəzli şəkildə araşdırılmışdır. Dövrün mütərəqqi fikirli ziyalıları tam fərqli tərəfdən, fərqli baxış bucağından təqdim olunmuşlar.

Bəhs edilən dövrdə insanların fikir və düşüncələrinin əsas məzmununu təşkil edən subyektiv gerçəkliyi daha düzgün anlayıb qiymətləndirmək üçün həmin dövrdə yaşayıb-yaratmış ədiblərin əsərləri diqqətəlayiqdir. Bu dövr xalqımızın "cəhalət və nadanlıq səltənətinə qarşı sosial–mədəni dirçəliş uğrunda apardığı mübarizə tarixində dəyərli bir səhifə təşkil edir." (X.Məmmədov).

Fəslin ikinci yarımfəsli **"Zadəgan mühitində qadın hüquqsuzluğu və "pul hakimiyyəti"** adlandırılmışdır. Bu yarımfəsildə Azərbaycan dramaturgiyasının yaranma tarixi qısa xülasə edilmiş, onun dünya dramaturji müstəvisində yeri və rolu aydınlaşdırılmışdır. Professor Ə.Sultanlı belə yazır: "Müəyyən bir tarixə malik olan yazılı Azərbaycan dramaturgiyası, öz məndəricəsi və bədii quruluşu ilə ... hər cəhətdən xalq dramını şərtləndirən qaynaqlarla bağlıdır."[2]. Buradan aydın görünür ki, dramaturgiyamızın tarixi qədim köklərə bağlıdır. Azərbaycan dramaturqları dünya dramaturgiyasından bəhrələnərək öz əsərlərində ümumbəşəri problemlərin qoyulmasına, onların həlli yollarını göstərməyə çalışmışlar.

Bizim tədqiq etdiyimiz dövr pyeslərinin məzmunu barədə görkəmli ədib Ə.Haqverdiyevin fikirləri çox maraqlıdır: " 90-cı illərin əvvəllərində ... yazılan pyeslərin mövzuları çoxarvadlılıq, nadanlıq, rüşvətxorluq, möhtəкirliк, mülкədarların sərxoşluq və əyyaşlığı, Neft torpaqları ilə alver və s. ibarət idi."[3]

Həmçinin bu yarımfəsildə tədqiqatın obyektinə uyğun olaraq konkret dram əsərlərinin fakturasında əks olunuan zadəgan mühitində qadın hüquqsuzluğu və "pul hakimiyyəti" araşdırılmışdır.

Burada əsas məqsəd həmişə aktual problem kimi qabardılan, sosial

---

[1] İsmayılova S. A. Şimali Azərbaycan tarixi Azərbaycan bədii ədəbiyyatında: T.e.n. ... dis. avtoref. Bakı, 2010, s.4.

[2] Sultanlı Ə. Azərbaycan dramaturgiyasının inkişaf tarixi. Bakı: ADN, 1964, s. 9.

[3] Haqverdiyev Ə. Seçilmiş əsərləri: 2 cilddə, II c., Baкı: Lider, 2005, s. 366.

bəla kimi cəmiyyəti çuğlayan qadın hüquqsuzluğu və "pul hakimiyyəti"nin acı nəticələrini ön plana çəkməkdir. Bu problemlər S.S.Axundovun, Ü.Hacıbəylinin, H.Cavidin, C.Cabbarlının və digər ədiblərin yaradıcılığında daha kolliziyalı şəkildə qoyulmuşdur.

Bu məqsədlə də S.S.Axundovun “Tamahkar”, Ü.Hacıbəylinin "O olmasın, bu olsun" komediyaları, həmçinin H.Cavidin “Maral” və C.Cabbarlının “Aydın” əsərləri araşdırma obyekti kimi götürülmüşdür. Bu əsərlərin təhlili onu söyləməyə əsas verir ki, dramaturgiyada əks etdirilən zadəganlıq öz bədii rəngini real həyatdan götürmüşdür.

“Tamahkar” və "O olmasın, bu olsun"-da bir növ “qazanc” əldə etmək xatirinə övladını “satan” valideynlər tənqid hədəfinə çevrilirlər və mütərəqqi fikirli insanların birgə mübarizəsi nəticəsində bu “alqı-satqı” baş tutmur. Hər iki əsər müsbət sonluqla bitir.

Fəlsəfi-psixoloji baxımdan çox mürəkkəb yaradıcılıq silsiləsinə malik olan dramaturqlarımızdan biri olan Hüseyn Cavidin əsərləri ilə ədəbiyyatımızın mövzular aləmi xeyli vüsətlənmiş, dramaturgiyamıza bəşəri konfliktlər və dərin düşüncəli, həssas ürəkli, böyük ehtiraslı parlaq xarakterlər gəlmişdir.

H.Cavid dramaturgiyasının əsas qayəsi min illərlə söz adamlarını, düşünən başları məşğul edən "İnsan" konsepsiyasıdır. Möhtəşəm, mürəkkəb, bununla belə daxili, bədii-fəlsəfi struktur etibarilə vahid "İnsan" konsepsiyası onun bir silsilə təşkil edən bütün əsərlərində yüksək poeziya dili ilə öz bədii-fəlsəfi tədqiqini tapmışdır.

Burada "Maral" faciəsi tədqiqata cəlb olunub. Mövzusu mülkədar, ailə və məişət münasibətlərindən alınan "Maral" (1912) əsərinin mərkəzində Azərbaycan qadınının faciəsi durur. Faciənin əsas qayəsini o dövrdə cəmiyyətin ən hüquqsuz üzvləri – biçarə qadınların fəlakətə sürüklənməsi və alqı-satqı predmetinə çevrilməsi təşkil edir. Dramaturq Maralın simasında qadını fəlakətə aparan, uçuruma yuvarladan ictimai quruluşu, qadın hüquqsuzluğunu doğuran səbəbləri bütün çılpaqlığı ilə tamaşaçıya təqdim edir. Burada Cavidin məqsədi qadınların faciəsinə səbəb olan cəmiyyəti ittiham etməkdir.

Faciədə mülkədar kimi təqdim edilən Turxan bəy obrazı hər cür böyük, yüksək amal və məqsədlərdən məhrum, hər şeyi pul və var-dövlətlə ölçən, dini mövhumatın radikal müdafiəçisi, dar düşüncəli orta yaşlı mülkədardır. O anlamır ki, var–dövlətlə, hakimiyyət ilə kimisə əldə etmək olar, amma qəlbə hökm etmək olmaz. Pulun hökmranlıq etdiyi mühitdə hər cür rəzalətlə qarşılaşmaq olar. Hər şeyi öz arşını ilə ölçən Turxan bəy özündən 32 yaş kiçik, 16 yaşlı sadə kasıb qız olan Maralla ailə

qurur. Bu izdivac Maralın istəmədiyi halda ehtiyac üzündən reallaşır. Əsərdə paralel olaraq iki nəfərin – Maralla onun yaşca özündən böyük oğulluğunun–Cəmil bəyin faciəsi qabardılır. Hər şeyin pula, paraya bağlı olduğunu düşünən Turxan bəy oğlu Cəmil bəyi mənən, Maralı isə cismən məhv edir.

Müəllifin Turxan bəyin fikirlərini alt-üst etmək üçün yaratdığı Nadir bəy obrazı da zadəgandır və vəkil işləyir. O Turxan bəydən həm intellektual səviyyəsinə görə, həm də davranışına görə kəskin fərqlənir. Çünki ziyalılığın, mədəniyyətin, azad və firavan cəmiyyətin, hüquq bərabərliyinin tərəfdarıdır Nadir bəy. Amma o da cəmiyyətdəki eybəcərliklərə qarşı mübarizədə acizdir. Bunun başlıca səbəbi onun da təkbaşına mübarizə aparmaq istəməsidir. Cəmil bəy, Nadir bəy və Maralın bu cəhalət və mövhumat dünyasına qarşı apardıqları mübarizədə məğlubiyyətlərinin ən başlıca səbəbi onların təkbaşına mübarizəsi idi.

Yaradıcılığı daim diqqət mərkəzində olan C.Cabbarlı ilk yaradıcılıq nümunələrindən başlayaraq qadın hüquqsuzluğuna qarşı mübarizəni ön plana çıxarmışdır.

Biz burada ölməz sənətkarın "Aydın" (1919) faciəsindəki Dövlət bəy və Aydın obrazlarını (Aydın zadəgan obrazı olmasa da, Dövlət bəy obrazının təhlili üçün və sosial mühitin şəxsiyyətə təsirini aydınlaşdırmaq məqsədilə) tədqiqata cəlb etmişik. Əsər müəllifin dəruni hisslərini əhatə etməsinə rəgmən çox təsirli və ardıcıl sujet xəttinə malikdir. Əsərdə baş qəhrəman kimi verilən Aydın obrazı sosial mühitin eybəcər qəlibində formalaşmağa məruz qalan kasıb bir gəncdir. O öz idealı uğrunda mübarizə aparmağa çalışır. Amma bu mübarizə düşünülmüş şəkildə, ardıcıl olmadığı üçün altun səltənətində qələbə qazana bilmir. Aydın var-dövlət sahibi olmaq, şöhrət qazanmaq istəyir. Amma yaşadığı mühit ona mane olur. Bu mühit onu və onun kimiləri "insan bilmir".

Aydın şöhrətin, varın bağlı bir otaqda, onun açarının isə altun olduğunu çox gözəl bilir. Bu cəmiyyətin fikri hər şeyi altunla əldə etməkdən, məğrurluğu altunla alçaltmaqdan, heç kəsə əyilməyəni altuna səcdə etdirməkdən ibarət olacaq.

Bu cəmiyyətdə Aydının qarşısına ilk çıxan əxlaqca yüngül, gününü eyş–işrətdə keçirməyi xoşlayan Dövlət bəy milyoner oğludur. O öz maddi imkanlarından çirkin məqsədlərini həyata keçirmək üçün bir vasitə kimi istifadə edir. Dövlət bəy Aydının xəstə və işsiz olmasından, Gültəkinin əlacsızlığından, özünün maddi resurslarının bolluğundan istifadə edərək çirkin niyyətini həyata keçirməyə çalışır və buna nail olur. Biz bir daha əmin oluruq ki, "C.Cabbarlı cəmiyyətin çatışmazlıqlarını tragik kolliziya

vasitəsilə nəzərə çarpdırırdı."[1].

Cəfər Cabbarlı bütün bəşəriyyətin bir məbud kimi itaət etdiyi, daim kömək umduğu, ağır fəlakətlərə yol açan amansız bir qüvvənin olduğunu Aydının sözləriylə çox gözəl xarakterizə etmişdir. "Dünyada hakim bir qüvvət varsa, o da altun, yenə altundur. Hamı ona tapınır. Hamı ona pərəstiş edir."[2]. Bu fikirlər bir fərdin yox, bütün bəşəriyyətin düşüncəsini əks etdirir. Aydın məhv olsa da, yaşadığı mühiti ifşa edə bilir.

Onu da qeyd etmək yerinə düşər ki, qadınların bir "əşya" kimi alqı-satqı predmetinə çevrilməsi, bir qrup şəxslərin "bütün maddi və mənəvi vasitələr pulla alına bilər" düşüncəsi azərbaycanlı dramaturqlarla bərabər həmin dövr dünya ədəbiyyatında aparıcı mövqeyə malik rus və Qərbi Avropa dramaturqlarını da düşündürən yaradıcılıq məsələsi olmuşdur.

İkinci fəsil **"Zadəgan obrazları dramaturji konfliktin predmeti kimi"** adlanır və iki yarımfəsildən ibarətdir.

**"Zadəgan mühitində köhnəliklə yeniliyin mübarizəsi"** adlanan birinci yarımfəsildə dram janrının xarakterinə uyğun olaraq obrazların dili ilə zadəgan mühiti, zadəgan məişəti, həyat tərzi, bütövlükdə zadəganlığın digər zümrələrlə qarşılıqlı müqayisəsi, bunların təsviri və təhlili məsələləri ön plana çəkilmişdir. Qədim ənənələrə söykənən zadəganlıq mövzusu XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında aparıcı xətt olmuşdur.

Cəmiyyətdəki böyük faciələrin əsasını ölməkdə olan əxlaq normalarında, köhnəlmiş dünyagörüşündə axtarmaq lazımdır. Faciə janrı yenilik və köhnəliyin konflikti olaraq yaranır. Bu janr ictimai ziddiyyətlərin fonunda formalaşır. Azərbaycan ədəbiyyatı tarixində faciə janrının ilk nümunəsi olan, N.Vəzirovun yazdığı "Müsibəti-Fəxrəddin" (1896) özü də belə bir ictimai-siyasi, qlobal çəkişmələr şəraitində meydana çıxmışdır. Əsər güclü çarpışmalar və ehtiraslar əsasında qurulmuşdur. Dramatik gərginlik yüksələn xətlə inkişaf edir. Bu əsər də XIX əsrin sonunda yazılmış əksər dram əsərləri üçün səciyyəvi olan cəhalətin, nadanlığın, qadın hüquqsuzluğunun, savadsızlığın, köhnə adət-ənənələrin, mövhumatın ifşası və tənqidinə, maarifin, təhsilin, mədəniyyətin, müasir dünyagörüşünün, bəşəri ideалların təbliğinə, xeyirin şərə, nurun zülmətə qalib gəlməsinə həsr olunub.

İnsan taleyinin zaman axarında başqalaşmasını, başqa sözlə, zaman-

---

[1] Məmmədova Ə. Q. İngilis və Azərbaycan dramaturgiyasında sosial problemin qoyuluşu (Bernard Şou və Cəfər Cabbarlının əsərləri əsasında): Fil. elm. nam. ... dis. Bakı, 2008, s. 28.

[2] Cabbarlı C. Əsərləri: 4 cilddə, II c., Bakı: Şərq-Qərb, 2005, s. 212.

insan-tale problemini aydınlatmaq istəyən müəllif onun arzularını reallaşdıra biləcək Fəxrəddin surətini yaratmışdır. İki mülkədar ailəsi arasında yaşanan qan düşmənçiliyinin qurbanı olan Fəxrəddin maarifçi bir müəllifin ideal surətidir. "Müsibəti-Fəxrəddin"də yaşanan faciə ümum-milli xarakterlidir, bu təkcə fəxrəddinlərin deyil, bütöv bir millətin faciəsidir ki, bunun da kökündə nadanlıq, avamlıq, elmsizlik durur. N.Vəzirovun qeyd etdiyi kimi hadisələr "xaraba bir vilayətdə" vaqe olur, cəmiyyətdə, əxlaq və məişətdə irtica və cəhalət hökm sürür. Həmin real mühiti təşkil edənlər "vəhşi tayfanın" üzvləridir, onlar adamı cəllad edərlər. Onları ancaq elmin islahedici qəlibi düzəldə bilər.

Fəslin koloritinə uyğun olaraq tədqiqata cəlb edilmiş əsərlərdən biri də yaradıcılığında köhnə zehniyyətlə, istismar və ictimai ədalətsizliklə mübarizə, köhnə ilə yeninin, "ata" ilə "oğul"un çarpışması mühüm yer tutan Ə.Haqverdiyevin "Bəxtsiz cavan" (1900) faciəsidir. Bu əsəri yazmaqla o, milli dramaturgiyamızı ideya və poetik-sənətkarlıq baxımından daha da zənginləşdirmişdir. Dövrün əsas ictimai ziddiyyəti, konflikti pyesdə açıq şəkildə qoyulub. Bu əsər öz üslub, janr və bədii xüsusiyyətlərinə görə dünya dramaturgiya kontekstinə uyğun gəlir. Əsərdə ən mürəkkəb ruhi hala malik olan obraz Fərhad surətidir. Bu obraz barədə professor Mir Cəlal belə yazır: "Köhnəliklə yeniliyin, tənəzzüllə tərəqqinin, keçmişlə gələcəyin, atalarla oğulların ziddiyyətini təmsil edən bu (*Fəxrəddin, İsgəndər, Fərhad və s.*–K.H.) ədəbi qəhrəmanlar arzu və məsləkləri etibarilə nə qədər yüksəkdə dursalar da, mübarizə və real imkanları etibarilə o qədər aciz və təsirsizdirlər. Bu qəhrəmanlar silsiləsində Fərhadın yeri mühümdür. O, maarifçi, mədəniyyətçi, eyni zamanda həqiqi demokratdır."[1].

Sosial ədalətsizlik, maddi bərabərsizlik insanlarda bir-birinə qarşı kin formalaşdırır. Fərhad obrazı barədə professor Məmməd Məmmədov belə yazır: “Fərhad demokratik ideyalar carçısıdır. Yeni və mütərəqqi ideyalar uğrunda mübarizəyə başlayan qabaqcıl ziyalıların tipik nümayəndəsi kimi onun mübarizə və fəaliyyəti geniş və əhatəlidir.”[2].

Fərhadın fikirləri çox parlaqdır, ideyaları duyanların qəlbini oxşayır. Amma bunları həyata keçirə bilmək üçün o gücsüzdür. Yüksək ideya daşıyıcısı olan, humanist, nəcib təbiətli bu gənc öz fikirlərinin intişar tapması üçün mücadilə etmir.

---

[1] Mir Cəlal. Klassiklər və müasirlər. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1973, s. 175.

[2] Məmmədov M. Əbdürrəhim bəy Haqverdiyevin həyat və yaradıcılığı. Bakı: Nurlan, 2008, s. 135.

Həmin əsərin məzmunu, ideya istiqaməti dəyişən, dalğalı xarakterə malikdir. Bu obraz XIX əsrin sonlarında yetişən maarifçi gənclərin ümumiləşmiş şəklidir. Əsərin sonlarında günahsızlığı sübuta yetirilsə də, Fərhad tam yetkin insan olmadığı üçün məhv olur.

Fərhad obrazına qarşı qoyulan Hacı Səməd ağa XIX əsrin sonları üçün xas olan tipik mülkədar obrazıdır. Bu obraz köhnə mülkədar həyatının, dar dünyagörüşün, kütləşmiş şüur və hissin müdafiəçisidir. O gördüyü bütün işlərdən mənfəət umur.

Müəllif "Dağılan tifaq" faciəsinin sonunda Nəcəf bəyi islah etməyə çalışsa da, "Bəxtsiz cavan" əsərin sonunda biz bunu görmürük. Amma ədib hər iki obrazdan fərqli olaraq Hacı Mehti obrazını ("Yeyərsən qaz ətini, görərsən ləzzətini") mühitin təsiri ilə islah edir.

N.Nərimanov məhv olan feodalizmlə "doğulan" kapitalizmin mübarizəsi fonunda yaranmış burjua–mülkədar mühitindən götürdüyü çoxsaylı, müxtəlif xarakterli obrazlar silsiləsi (müəllim, ziyalı, student, şah, molla, mülkədar, kəndli, nökər, yalançı din xadimi, fanatik dindar, həkim, qaçaq, məmur, azərbaycanlı şəhər və kənd qadınları, ziyalı qadınlar və s.) yaratmağa müvəffəq olmuşdur. Biz dissertasiya işinin məzmununa uyğun olaraq N.Nərimanovun dram əsərlərində olan zadəgan obrazları və bu obrazların işlənmə səviyyəsini araşdırmaya cəlb etmişik.

N.Nərimanovun ilk qələm təcrübələrindən biri olan "Nadanlıq" (1894) dramının "əsas ideyası feodal hayatının köhnə adət-ənənələrinə, cəhalətə və nadanlığa qarşı mübarizədir."[1]. Zəngin həyati müşahidələr əsasında yazılmış bu əsərdə cəmiyyətin düşdüyü ictimai - əxlaqi böhran, tənəzzül və iflas keçirən mülkədarların faciəsi, doğma xalqının mədəni tərəqqisi ugrunda mübarizə aparan maarifçi gənclərin məğlubiyyəti təsvir olunur. Əsərdə təqdim olunan Məhəmməd ağa və Ömər obrazları maarif çırağını yandıran, yenilikçi ideyaları təbliğ edən, xalqın xeyrinə öz mənfəətindən əl çəkən gənc ziyalı zadəganlardır. Əsərdə Məhəmməd ağa və Ömər obrazlarına qarşı qoyulan qara xislətli mülkədar Hacı Abdulla, cadugər Molla Qasım, Ömərin doğma qardaşı qaçaq Vəli obrazları da vardır. Hər iki qütb bir-biri ilə mübarizə aparır. Amma bu mübarizə kor-koranədir. Burada iki fərqli düşüncə tərzi qarşılaşır və dramatik konfliktin meydana gəlməsinə səbəb olur.

Tədqiqatçı Şurəddin Məmmədli qeyd edir ki, "Cəhalət qaranlığında işıq kimi parlayan Ömər Borçalının o vaxtkı ziyalı gəncliyinin

---

[1] Məmmədli Ş. Ədəbi Borçalı. Bədii ədəbiyyatda Borçalı mövzusu. (1920-ci ilə qədər). Bakı: Elm, 2002, s. 84.

ümumiləşmiş surətidir."[1].

A.Şaiqin "Tələbə həyatı" (1919) pyesi də çox orijinal üslubda işlənmiş və zadəgan mühitinin tədqiqi baxımından əhəmiyyətlidir. Burada canlandırlımış obrazlar da o dövrün digər zadəgan obrazlarına xas olan ümumi xüsusiyyətlərə malikdirlər.

S.S.Axundovun "Laçın yuvası" pyesi çox mükəmməl və orijinal üslubda yazılmışdır. Əsərin baş qəhrəmanı Əmiraslan ağa bir kəndin sahibidir. Çox qüvvətli və stabil xarakterə malik, nüfuzlu zadəgandır. Bolşevik bəlasının yaxınlaşdığını duyduqda ətraf kəndlərdə yaşayan bəyləri yanına çağıraraq mübarizə planı qurur.

Ədib bu əsərdə də maraqlı konfliktdən istifadə etmişdir. Əmiraslan ağaya qarşı vuruşan onun öz oğlu Cahangir ağadır. Biz burada N.Vəzirovun, N.Nərimanovun, Ə.Haqverdiyevin yaradıcılığına xas olan "ata" və "oğul" probleminin, köhnəliyə qarşı yeniliyin, şərə qarşı xeyirin mübarizəsinin qoyulduğunu görürük. Doğrudur, həmin ədiblər öz əsərlərində yalnız sosial mühitin dəyişməsini təbliğ edirdilərsə, S.S.Axundov da "Laçın yuvası" əsərində N.Nərimanov kimi ("Nadir şah") cəmiyyətdəki problemlərin həllini yalnız ictimai quruluşun dəyişməsində görürdü.

Professor N.Vəlixanovun belə bir fikri ilə razılaşa bilmərik: "Əmiraslan ağada vətənpərvərlikdən əsər-əlamət yoxdur. O, şəxsi mənafe hissi ilə yaşayır, şəxsi rahatlığının qeydinə qalır"[1]. Biz hesab edirik ki, onun apardığı mübarizə sırf milli ideologiyaya, vətənin müdafiəsinə xidmət edirdi.

Atasına qarşı qoyulmuş Cahangir ağa obrazı bir qədər mürəkkəb xarakterli obrazdır. Özü zadəgan olsa da, bu mühitin eybəcərliklərini dərk edib, ondan qurtulmağın yolunu inqilabda görür. Yazıçı dövrün ideoloji tələblərinə uyğun olaraq Cahangir ağaya öz valideynlərinin qanı ilə sulanmış qalada hakimiyyət qurmasına şərait yaradır.

Burada təqdim edilmiş Pəricahan xanım obrazı da çox maraqlı, son səhnəyədək stabil xarakterə malik, milli mənlik və vətən təəssübkeşliyi nöqteyi-nəzərindən heç də bəylərdən geri qalmayan dolğun obrazdır. Səhnədən səhnəyə xarakteri açılan bu obraz vətənini, xalqını, ailəsini sevən, onun bütövlüyü və azadlığı uğrunda mübarizədən qorxmayan mətin, şücaətli surətdir. Müəllif bu surətlərin köməyi ilə o dövrün hadisələri real rakursdan canlandırmağa müvəffəq olmuşdur.

---

[1] Vəlixanov N. Süleyman Sani Axundov (həyat və fəaliyyəti). Bakı: Gənclik, 1968, s. 81.

İkinci yarımfəsil **"Zadəganlığın tragik-dramatik ifadəsi milli-mənəvi dəyərlər kontekstində"** adlanır.

Ə.Haqverdiyevin ideyaca dolğun, dərin məzmunlu, səlis bir dillə yazılmış, ictimai və bədii cəhətdən mükəmməl işlənmiş əsərlərindən biri də "Dağılan tifaq" (1896) faciəsidir.

Tədqiqatçı M.Həsənova həmin faciə barədə yazır: "Müsibəti-Fəxrəddin"dən sonra məhz "Dağılan tifaq" ikinci maarifçi faciə kimi öz missiyasını uğurla yerinə yetirir. Maarifçi mütəfəkkirin hər bir əsərində mühitin və millətin ağrı-acısı duyulur."[1].

Ə.Haqverdiyevin "Dağılan tifaq" "... dramı kəskin dramatik konfliktə malik faciədir və sənət əsəri kimi ustalıqla yazılmışdır. Konflikt elə məharətlə qurulmuşdur ki, əsas surətlər pərdədən–pərdəyə keçdikcə dolğunlaşır, öz səciyyəvi xüsusiyyətlərini üzə çıxarırlar."[2].

Əsərdə ədib cəmiyyətin müxtəlif təbəqələri arasında mövcud olan mürəkkəb ictimai münasibətlərin mahiyyətini açmağa çalışmışdır. M.Həsənova belə yazır: "əsərdə Nəcəf bəyin faciəsi elə inandırıcı təsvir edilmişdir ki, onun maddi və mənəvi iflası oxucuya tarixin qanuni hökmü kimi təsir bağışlayır."[3]. Doğrudur, Nəcəf bəyin faciəsi çox inandırıcı təsvir edilmişdir. Amma bunu tarixin qanuni hökmü kimi qəbul etmək düzgün deyil. Çünki, bu faciəni doğuran səbəb tək Nəcəf bəyin hərəkətlərində yox, həm də onun yaşadığı və təmsil etdiyi mühitdə idi.

Nəcəf bəy surəti öz mürəkkəb daxili mühiti ilə həmin dövr zadəganlığının ümumiləşdirilmiş obrazıdır. Var–dövləti başından aşan, onlarla kəndə sahib olan bəy, öz övladına düzgün tərbiyə verə bilmir. Onu ali təhsilli edir, amma əxlaq normalarını öyrədə bilmir. Rəiyyəti, sosial vəziyyəti ondan aşağı olan şəxsləri "it-qurd" hesab edir. Bu düşüncə və əxlaq tərzi sonda onun məhvinə-tifağının dağılmasına səbəb olur. Ən əsası isə, sonda o, vicdanı tərəfindən mühakimə olunur.

N.Nərimanovun kəskin sosial xarakter daşıyan ikinci dram əsəri "Dilin bəlası, yaxud, Şamdan bəy" (1895) pyesidir. Pyesin süjet xəttini feodalizmin xarabalıqları üzərində öz "səltənətini" bərqərar etməyə çalışan kapitalist burjua cəmiyyətinin fəlakətləri olan tamahkarlıq, dostluğa xəyanət, riyakarlıq, mal-dövlət hərisliyi kimi məsələlərin ifşası təşkil edir.

---

[1]Həsənova M. Ə.Haqverdiyev və xalqın milli özünüdərki // Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, 2010, № 2, s. 66.

[2] Qarayev Y. Müqəddimə // Əbdürrəhim bəy Haqverdiyev. Seçilmiş əsərləri: 2 cilddə, I c., Bakı: Lider, 2005, s. 10.

[3]Həsənova M. Ə.Haqverdiyev və xalqın milli özünüdərki // Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, 2010, № 2, s. 66.

Bu eybəcər xüsusiyyətlərə qarşı sədaqət, ittifaq, birgə mübarizə qoyulur.

N.Nərimanov Şamdan bəy surəti ilə o dövrün lovğa, xudpəsənd, yalançı, ikiüzlü, riyakar "millət dostlarının" prototipini yaratmışdır. O varlanmaq hərisliyi olan, çirkin yollarla sərvət əldə etmək istəyən, buna görə bütün mümkün eybəcər vasitələrə - hiyləyə, yalana, fırıldaq və riyakarlığa, xəyanətə əl atan bihəya tipdir.

Bu obraza qarşı Yusifin timsalında müəllif o dövrkü mütərəqqi fikirlər və ideyalar daşıyıcısı olan nəcib təbiətli bir gənc obrazı yaradır. O dosta sədaqəti, ailəcanlılığı, xeyirxahlığı, etibarı keyfiyyətli xüsusiyyət kimi qəbul edir. Xədicə adlı təhsilli bir qızla ailə qurmaq istəyir. Amma Şamdan bəy Yusifin evində qonaq qalsa da, onun nişanlısına göz dikir, onunla ailə qurmaq qərarına gəlir.

Hadisələrin inkişafında Xədicənin dayısı Niyaz bəy obrazı səhnəyə gəlir. O mütərəqqi fikirli bir gəncdir və ziyalı şəxslərlə avam şəxsin ailəyə münasibətindəki fərqi Xədicənin atasına izah edir.

İlk dəfə olaraq bu əsərdə cəmiyyətdəki eybəcərliklərə qarşı kütləvi mübarizə səhnələri canlandırılır. Ziyalı və mədəni insanların Şamdan bəyə qarşı birgə mübarizəsi sonda onun labüd olan məhvinə səbəb olur. Şamdan bəy özünü öldürür. Burada müəllif hər hansı problemin həllində yekdil qəbul edilmiş qərarın gücünü göstərməyə çalışmışdır.

Üçüncü fəsil **“Tarixi dram əsərlərində zadəganlığın obrazlı təqdimatı. “Millətpərəst” zadəganlar dramaturji obraz kimi”** adlanır və iki yarımfəsildən ibarətdir. **“Tarixi pyeslərdə zadəganlığın dramatik təcəssümü”** adlanan birinci yarımfəsildə əsas məqsəd tarixi şəxsiyyətlərin obrazlarının dramaturgiyamıza gəlişinin səbəblərini araşdırmaq, onların ədəbi qəhrəman kimi necə təqdim olunmalarını, ədiblərin tarixlə müasir dövr arasında necə əlaqə yaratdıqlarını göstərməkdir. Həmin ədiblər tarixdən baxmaqla müasir dövrü müşahidə etməyi qarşıya məqsəd qoymuşlar. Həmçinin tarixdən ibrət götürmək əsas məqsəd kimi ön plana çəkilmişdir.

Öz bədii mahiyyəti, ədəbi koloriti, daşıdığı ideya yükü baxımından Azərbaycan ədəbiyyatında ilk tarixi faciə olan "Nadir şah" (1898, 1913) dramı mühüm səciyyə daşıyır. N.Nərimanov bu əsəri yaratmaqla yeni bir yaradıcılıq yolunun başlanğıcını qoydu. Mütləqiyyətin xalqların inkişafına, mədəniyyətin tərəqqisinə, dünyəvi dövlətin qurulmasına bir əngəl, bir falanqa olmasını ilk dəfə bu dram ilə N.Nərimanov göstərməyə çalışmış və özünün dövlət, cəmiyyət haqqında ideyalarını, fikirlərini burada bəyan etmişdir.

Dramaturq adı çəkilən dramda dövlət və onun idarə olunması

məsələlərini M.F.Axundzadədən də ("Aldanmış kəvakib") irəli gedərək daha da kolliziyalı qoyur. Belə ki, o şahın, hökmdarın dəyişməsi ilə hürriyyət, xoşbəxtlik əldə etmək mümkün olmadığını göstərərək müstəbid şahla bərabər onun yaratdığı rejimi də devirməyi məsləhət görür.

Əsərin məzmunu XVIII əsrin birinci yarısında baş vermiş hadisələri əhatə etsə də, əslində Nərimanov özünün də müasiri olduğu çar üsul – idarəsinin mürtəce mahiyyətini ifşa etməyə çalışmış və ondan qurtulmağın yolunu (Şah Təhmasın devrilməsi səhnəsi) göstərmişdir. O bütün bəlaların səbəbini təkcə hökmdarlarda yox, onların qurduğu hakimiyyətdə, cəmiyyətdə axtarırdı. Bu faciə özlüyündə mürəkkəb kolliziyalardan təşkil olunub və ardıcıl süjet xəttinə malikdir.

Burada Şah Təhmas və Nadir şah obrazlarını təhlilə cəlb edilmişdir. Şah Təhmas surəti zəif iradəli, hadisələrə dəqiq qiymət verə bilməyən, dostunu düşmənindən fərqləndirməyə çətinlik çəkən, məhdud düşüncəli obrazdır. O qərarları düşünməmiş verir və bu qərarların nəticəsi ağır olur.

Nadirin dilindən səslənən ittihamlar çox təsirli səslənir. "Bir padşah ki, dövləti və milləti tapşıra biinsaf, bimərifət şəxslərə *(baxır Heydər xana və səsini ucaldır),* bir padşah ki, canfişan olan qoşunun və sərkərdənin qədr-qiymətini bilməyə *(üzünü xanlara)* tac və səltənətə layiq deyil. Hərgah istəyirsiniz vətənimiz hər fəsaddan xali və asudə ola gərəkdir belə padşah səltənətdən xaric olsun..."[1].

Nadir şah obrazı müəllifin ən qüvvətli xarakterə malik, mürəkkəb və ziddiyyətli obrazlarından biridir. Belə ki, N.Nərimanov Nadir obrazı ilə öz arzu və istəklərini duyanlara çatdırmaq istəmişdir: bütöv vətən, azad və firavan xalq, təhsil almış insanların qurduğu cəmiyyət, dini ayrı–seçkiliyə son, təriqət parçalanmasını aradan qaldıraraq milli məfkurəyə xidmətə cəlb etmək, xalqı soyan axund və mollaların qarşısını almaq, millətin tərəqqisinə və ayılmasına xidmət, dövlətin idarə olunması məsələləri.

Nadir surəti gəlişdən-gəlişə, pərdədən-pərdəyə tərəqqi edən, yüksələn bir obraz təsiri bağışlayır. O adi quldurluqdan məmləkətin şahı səviyyəsinə yüksəlməyə müvəffəq olur. Professor Y.Qarayev yazır ki, "Nadirin faciəsi onun şahlığı ilə başlayır."[2]. Biz bu fikirlə şərikik.

Amma Nadir obrazında da daxili mühit təlatümlüdür. Belə ki, o da düşdüyü situasiyanı tam qiymətləndirə bilmir. Nadirin də həyatı Ağa Məhəmməd şah Qacarın həyatı ilə eyniyyət təşkil edir (Ə.Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" pyesi). Hər iki faciənin son səhnəsində

---

[1] Nərimanov N. Seçilmiş əsərləri. Bakı: Lider, 2004, s. 135.
[2] Qarayev Y. Faciə və qəhrəman. Bakı: Azərbaycan Elmlər Akademiyasının nəşriyyatı, 1965, s. 66.

narazı xanlar və keşikçilərin şahları qətlə yetirmələri təsvir olunub.

Nərimanov bu əsərlə despotizmə, ədalətsizliyə qarşı mübarizənin bir növ metodologiasını işləyib hazırlamış və gələcək hadisələrin inqilabi dəyişikliklərlə həyata keçirilməsi üçün əsasnamə tərtib etmişdir.

"Ağa Məhəmməd şah Qacar" (1907) əsəri Ə.Haqverdiyev yaradıcılığında mühüm yer tutur. Professor Yaşar Qarayev qeyd edir ki, Ağa Məhəmməd şah Qacar "tarixi tragediyadır". Bu fikirlə qismən razılaşmaq olar. Çünki əsər tarixi tragediya olsa da burada ədib öz dünyagörüşünü açmağa çalışmışdır. "Nadir şah"da da N.Nərimanov bu maneradan istifadə etmişdir. Ə.Haqverdiyev "Ağa Məhəmməd şah Qacar" pyesini yazarkən realizmin bütün imkanlarından istifadə edərək yüksək sənətkarlıqla orijinal bir əsər yaratmışdır. Bu əsərdə kolliziyalar müxtəlif qütblər arasındakı mübarizə üzərində yox, daxili konfilikt əsasında qurulmuşdur. Əsər özlüyündə dramatik ziddiyyətli çox mürəkkəb süjet üzərində qurulmuşdur.

Əsərdə təsvir olunan bütün hadisələrin mərkəzində dayanan və onların dinamik inkişafına təkan verən əsas aparıcı qəhrəman Qacar obrazıdır. Müəllif Qacarı müxtəlif psixoloji vəziyyətlərdə, çətin ictimai-siyasi şəraitdə, həmişə hərəkətdə təsvir edir. Ağa Məhəmməd obrazı xarakter və işlənmə baxımından Azərbaycan dramaturgiyasında ən qüvvətli obrazlardan biridir. Müəllif məclisdən–məclisə, pərdədən–Biz haqverdiyevşünas professor Məmməd Məmmədovun belə bir fikri ilə tam razıyıq: "Ə.Haqverdiyev faciə qəhrəmanı kimi Qacarı geniş planda, bütün mürəkkəb və ziddiyyətli cəhətləri ilə təcəssüm etdirərək onun simasında təzadlı xarakterlərin vəhdətini verir."[1]. Bəli, alimin fikirləri bütün əsər boyunca özünü çox parlaq göstərir.

Qacar obrazı sərt xarakterə, dözümə, yenilməz iradəyə, vəhşi xislətə malikdir. O çox tədbirli, elmli, uzaqgörəndir. Qəlbində yurd salmış nifrət Qacarı intiqamçı zalıma çevirir. Şah hakimiyyəti onu despota, yırtıcıya çevirir. O zülmlərdən, ah-nalədən zövq alır.

Onun qəddarlığı məclisdən məclisə daha da şiddətlənir. Dünyəvi ləzzətdən məhrum olan şəxs əzabdan, qandan, oddan nəşələnir. Amma bu rəhmsizliyin, qəddarlığın özündə də bir vətən, millət təəsübü vardır.

Ə.Haqverdiyev Tiflisə və Qarabağa hücum səhnələrini çox orijinal işləmişdir. Gürcülərin və qarabağlıların misalında yadellilərə qarşı istiqlal savaşının aparılması hər bir əsarətdə olan xalq üçün nümunədir.

---

[1] Məmmədov M. Əbdürrəhim bəy Haqverdiyevin həyat və yaradıcılığı. Bakı: Nurlan, 2008, s.152.

**"Dram əsərlərində "millətpərəst"liyin bədii inikası"** adlanan ikinci yarımfəsil XX əsrin əvvəllərində burjua cəmiyyətində bir növ dəb halını almış "millətpərəstlik", "millət qeydkeşliyi" ifşası məsələləri və milli kimliyimizi milli ədəbiyyatımızda əks etdirən ayna–"Anamın kitabı" dramının ədəbiyyatımızda rolu təhlilə cəlb edilmişdir.

XX əsrin əvvəllərində bir sıra xeyriyyə cəmiyyətləri yaradılır, bir qrup ziyalılar xalqın maariflənməsi üçün çalışırdılar. Bu vaxt bəzi işbaz zadəganlar özlərini xalqa, cəmiyyətə milli təəsübkeş kimi təqdim edərək xalqı aldadırdılar. Bu kimi "millət dostlarının" ifşası labüd idi. Bunu etmək dövrün ədiblərinin vəzifəsi kimi qarşıya çıxırdı. Onlar öz qələmləri ilə yalançı "millət qeydkeşlərini" xalqa tanıtmağa çalışırdılar.

Vəba və taun kimi bütün cəmiyyəti bürümüş fırıldaqçılığı, yalançı millətpərəstliyi ifşa edən N.Vəzirov "Pəhləvanani-zəmanə" pyesini yazmaqla o dövr burjua cəmiyyətini ifşa etməyə çalışmışdır. Əsərdə təqdim edilən Laçın bəy, Cahangir bəy və Aslan bəy obrazlarının ilk dialoqu artıq bu "millətpərəst" bəylərin kimliyini bir daha təsdiq edir. Onlar - yəni Cahangir bəy, Aslan bəy, Laçın bəy qarşılarına keçən bütün insanları tovlayıb tələyə salır, onların əlacsız və məlumatsız vəziyyətindən istifadə edərək əllərində olanları mənimsəyirlər. Amma sonda belə rəzil "millətpərəstlər" öz hüquqi cəzalarını alırlar–Aslan bəy hər iki məsləkdaşını aldadaraq qaçır, Laçın bəylə Cahangir bəy isə həbs olunurlar.

Yaratdığı zadəgan obrazlarının ən yaxşı bölgüsünü elə Ə.Haqverdiyev özü vermişdir. Ölməz sənətkar "Xortdanın cəhənnəm məktubları"nda yerli bəylərin dörd sortunun olduğunu göstərir[1].

Ə.Haqverdiyev "Millət dostları" komediyasını qələmə almaqla XX əsrin əvvəllərində meydana çıxaraq Azərbaycan cəmiyyətini bürümüş yalançı, özünü öyən, şöhrətpərəst, xudpəsənd, üzdə xalqın dərdinə yanan, amma batində öz mənafeyini güdən, özünü millətin qayğıkeşi, dostu adlandıran, yalnız şərab süfrəsi arxasında milləti düşünən bir qrup "millətpərəst ziyalıların" saxta simalarının ifşasına və onları tanıtmağa həsr olunmuşdur.

S.S.Axundov öz töhfəsini yalançı millətpərəstlərin, özünü milli birlik, türkçülük tərəfdarı kimi göstərən, şəxsi mənfəətini hər şeydən üstün tutan "xalq qəhrəmanlarının" ifşasında da əsirgəməmişdir. O 1906 – cı ildə qələmə aldığı iki ("Dibdat bəy" və "Türk birliyi") əsərdə özünü milli təəsübkeş kimi göstərən, yalnız öz mənafeyini güdən, harın, mənəvi və əxlaqi cəhətdən kasıb, özünü alicənab bir insan kimi göstərməyə çalışan,

---

[1] Haqverdiyev Ə. Seçilmiş əsərləri: 2 cilddə, II c., Bакı: Lider, 2005, s. 66-67.

"vətən-millət" niqabı altında gizlənən zadəganların silsiləsini yaratmışdır. S.S.Axundov qələmi bu niqabı qaldıraraq onun arxasında gizlənən əxlaqsız, mərifətsiz, nadan, öz mənafeyini güdən bir insanın gizləndiyini hamıya göstərir. Ədib yaratdığı obrazların zahiri xeyirxahlığı və alicənablığı arxasında gizlənən iyrənc xislətlərini sənətkarcasına açıb göstərə bilmişdir.

Yaratdığı bütün ədəbi janrlarda gülüşdən bədii silah kimi istifadə edən C.Məmmədquluzadə azərbaycançılıq ideyasını dünyaya bəyan etməklə yanaşı, onun passportunu - "Anamın kitabı" (1919) dramını yazmaqla xalqımızın yabançı ideologiyalar içində məhv olaraq assimilyasiya olunmasının qarşısını almışdır.

"Bizim günlərin milli ideologiyasının əsasını təşkil edən azərbaycançılıq faktı "Anamın kitabı"na yenidən və əsaslı şəkildə qayıtmağı zəruri edir."[1] .

Biz bu əsərin quruluşuna nəzər saldıqda müəllifin "Azərbaycan" məqaləsinin (1917) dramlaşmış formasını görürük. Pyesin əsas baş qəhrəmanı Vətəndir. Bu vətən yadların əlindədir, parçalanıb, yağmalanıb, tapdalanıb, milli qüruru qırılıb. Onun qayğısına heç kəs, hətta böyütdüyü övladları da qalmır. Hadisələr bir ailənin üzvləri arasında cərəyan etsə də, bu ailə bütöv vətənin kiçildilmiş modelidir. Ədib burada zəngin poetik rəngarənglikdən istifadə edib. Əsərdə iki əsas qütb – xalqa yad, yabançı ideyallar daşıyıcısı olan üç qardaş və onlara qarşı Vətəni, milli varlığı əsas tutaraq mübarizə aparan Ana və Gülbahar obrazları durur. "Anamın kitabı"nda müəllif öldürücü gülüşün bütün çalarlarından istifadə edərək yalnız özünü düşünən, vətəninə, xalqına xəyanət edən simasız insanları böyük vətəndaşlıq mövqeyindən ittiham edir. "Pyesin məzmununu təşkil edən mühüm məsələlərdən biri millətin mövcudiyyəti üçün zəruri şərt olan ana dili məsələsidir."[2].

Dördüncü məclisdə qardaşlar kitablarını ayıraraq öz ata ocaqlarını tərk etməyə qərar verəndə anaları Zəhrabəyim çox yalvarır. Bir ürəyin üç yerə parçalandıqdan sonra daha yaşamayacağını söyləyir. Amma qardaşlar ona qulaq asmayıb evi tərk edirlər. Müəllif burada maraqlı və ibrətamiz bir məqama toxunub. Min illərlə əsarətdə qalmağımızın, vətənimizin parçalanmasının, başımıza gələn və az qala bir millət kimi məhvimizə

---

[1] Əkbərova S. Cəlil Məmmədquluzadə yaradıcılığında azərbaycançılıq ideyalarının tərənnümü / Tərcüməşünaslıq və onun müasir dövrdə rolu respublika tələbə elmi-praktik konfranslarının materialları. Bakı: Qafqaz Universiteti nəşri, 2011, s. 7.

[2] Kazımov Q.Seçilmiş əsərləri: 10 clddə, IV c., Bakı: Nurlan, 2009, s. 25.

səbəb olan bəlaların hamısının baiskarı bir məsləkə, bir etiqada, bir ana sözünə qulaq asmamağımızda, hər kəsin ayrı – ayrı yolla getməyindədir. Gülbaharın hamballa dialoqu milli özünüdərkə, milli özünəqayıdışa, milli tamlığa çağırış nidasıdır: "Ay hambal qardaş, bir mənə de görüm, axır adamlar niyə hərə bir yana gedir?.. Onlar hamısı Allahın yolundan çıxıblar. Yox, yox, sən onları xəbərdar elə! Yoxsa yazıqdılar, axırda özləri peşman olarlar..."[1]. Qardaşları ayıran, onları başqa-başqa yolla getməyə sövq edən səbəbi Gülbahar üç müxtəlif məslək təbliğ edən kitablarda görür və onları yandırmaqla bu ayrılığa son qoyacağını düşünür. Bu zatları birləşdirən bir kitab var: "bu da anamın kitabıdır!"

**"Nəticə"də** dissertasiyanın əsas elmi-nəzəri müddəaları müxtəsər şəkildə xülasə olunmuşdur.

1. Tədqiqatdan belə nəticəyə gəlinmişdir ki, XIX–XX əsrlərin qovuşuğu Azərbaycan ictimai-tarixi və ədəbi-mədəni mühitində əsl intibah dövrü, Azərbaycanın bədii mədəniyyəti tarixində ideya-estetik nailiyyətləri ilə seçilən bir mərhələ olmuşdur. Dramaturgiya bir ədəbi növ kimi həmin dövrdə intişar tapmış və inkişaf etməyə başlamışdır. Həmin dövr ədiblərinin qarşılarına qoyduqları əsas məqsəd yüksək ideya-bədii keyfiyyətli dramaturgiya, bu dramaturgiyadakı qəhrəman-xarakter məsələsi, müxtəlif üslublu, müxtəlif estetik konsepsiyaları ilə seçilən əsər yaratmaq idi.

2. Tədqiqatda bu qənaətə gəlinmişdir ki, azərbaycançılıq ideyası məhz XIX əsrin sonlarından müqtədir ziyalı zadəganlar tərəfindən ictimai–siyasi dövriyyəyə buraxılmışdır.

3. Azərbaycan ədəbiyyatında, xüsusilə dramaturgiyasında XIX əsrin sonu XX əsrin ilk onillikləri dövründə müxtəlif tipli, müxtəlif xarakterli, ayrı-ayrı düşüncə tərzinə, dünyagörüşünə malik zadəgan obrazları yaradılmışdır. Qədim ənənələrə söykənən zadəganlıq mövzusu həmin dövr yazılı ədəbiyyatda aparıcı xətt olmuşdur. Azərbaycan dramaturgiyasında zadəgan obrazının xarakterini açmaq təkcə bir obrazı fərd olaraq öz mənfi və müsbət keyfiyyətləri ilə təhlil eləməkdən ibarət deyildir. Burada eyni zamanda müəlliflər obrazların dili ilə zadəgan mühiti, zadəgan məişəti, həyat tərzi, bütövlükdə zadəganlığın digər zümrələrlə qarşılıqlı müqayisəsi və s. məsələlərin təsvirini verməyə nail olmuşlar.

---

[1] Məmmədquluzadə C. Əsərləri: 4 cilddə, I c. Bakı: Öndər nəşriyyatı, 2004, s. 473-474.

Həmçinin o da aydınlaşdırılmışdır ki, müəlliflər bir çox mənfi xüsusiyyətlərə malik obraz kimi qələmə aldıqları zadəgan obrazlarının dili ilə bir sıra müsbət, xalqa xidmət edən bəşəri ideyalar irəli sürmüşlər (Məs: bütöv vətən, milli mənlik, maarifin təbliği, mütləqiyyətlə mübarizə və s.).

Tədqiqat nəticəsində aşkarlanmışdır ki, araşdırılan əsərlərdə iki qrup zadəgan obrazları yaradılmışdır:

I qrup - öz əməlləri, təhsili və maddi resursları ilə xalqını, millətini aydınlığa qovuşdurmağa çalışanlar;

II qrup - əlində olan imkanlardan daha da güclü istifadə edərək xalqı əsarətdə saxlayan, milləti zülmətə sürükləyənlər.

Həmçinin mənfi və müsbət obraz kimi bədiiləşdirilmiş zadəganları aşağıdakı kimi də qruplaşdırmaq olar:

I. Əsilzadə zadəganlar (zadəganlığının tarixi kökü olanlar);

II. Zadəganlığının tarixi təməli olmayan zadəganlar.

4. Tədqiqatda o da aşkarlanmışdır ki, müəlliflər hər bir mənfi tip kimi qələmə alınan zadəgan obrazını islah etmək üçün onunla paralel bəşəri ideyalar daşıyıcısı olan digər bir obraz yaratmışlar. Yəni hər bir mənfi obrazı tərbiyə edən bir müsbət obraz vardır.

5. Tədqiqat onu da aydınlaşdırmışdır ki, dramaturgiyamızda qələmə alınan zadəgan obrazları tədqiqatçılar tərəfindən məhz sosial mühit, milli-mənəvi dəyərlər kontekstində araşdırmaya cəlb olunmamışdır.

6. Sovet dövrü tədqiqat əsərlərində mənfi obraz kimi qəbul edilən Şah Qacar, Nadir şah, Əmiraslan ağa və s. obrazlar müasir baxış zamanı "bütöv vətən" uğrunda mübarizə simvolu kimi xarakterizə olunmuşdur.

7. Tədqiqat işində həmçinin həmin dövrdə qələmə alınan əsərlərdə zadəgan qadınların, ümumilikdə isə Azərbaycan qadınının hüquqsuzluğu, onlara qarşı olunan ədalətsiz davranış ön plana çəkilmişdir.

8. Tədqiqat onu da aydınlaşdırmışdır ki, bu dövrkü Azərbaycan dramaturgiyası öz mövzu müxtəlifliyi, yeni ideyalar aləmi və qəhrəman seçimi ilə digər dövrlərdən fərqlənir. Həmin dövrdə yaşamış müəlliflərin yaradıcılığında "yalançı millət dostları"nın ifşası, tarixi şəxsiyyətlərin obrazlaşdırılması ilə həmin dövr üçün səciyyəvi olan problemlərin səhnəyə gətirilməsi ideyası meydana gəlmişdir.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı əsərlərində əks olunmuşdur:**

1. XIX əsrin sonu–XX əsrin əvvəllərində Azərbaycanda ictimai–siyasi vəziyyət və ədəbi-mədəni mühit // Dil və ədəbiyyat, Bakı, 2012, №2, s. 184-186

2. Hüseyn Cavid fenomeni // Filologiya məsələləri, Bakı, 2012, №7, Elm və təhsil, s. 307-312
3. Azərbaycan dramaturgiyasında obraz müxtəlifliti (XIX əsrin sonu - XX əsrin əvvəllərində) // Filologiya məsələləri, Bakı, 2013, №2, Elm və təhsil, s. 373-378
4. Nəriman Nərimanovun "Nadir şah" faciəsində zadəgan obrazları // Filologiya məsələləri, Bakı, 2013, № 3. Elm və təhsil, s. 67-71
5. Azərbaycan dramaturgiyasının səciyyəvi xüsusiyyətləri (XIX əsrin sonu–XX əsrin əvvəlləri) // Bakı Universitetinin Xəbərləri (Humanitar elmlər seriyası), Bakı, 2013, №3, s. 35-39
6. Əbdürrəhim bəy Haqverdiyev yaradıcılığında zadəgan obrazları // Dil və ədəbiyyat, Bakı, 2013, № 2(86), s. 153-155
7. Аристократические образы в азербайджанской драматургии // "Вестник КазНУ" (Серия филологическая. Казахский Национальный Университет имени Аль-Фараби), Алматы, Қазақ университеті, 2013, №3, с. 21-25
8.“Millət dostları" və ya yalançı zadəganlar / Bakı Dövlət Universiteti, "Görkəmli maarifçi, pedaqoq, ədəbiyyatşünas və publisist Firidun bəy Köçərlinin anadan olmasının 150 illiyinə həsr olunmuş Respublika elmi konfransı"nın materialları. Bakı şəh. 26 noyabr 2013-cü il. Bakı: Bakı Dövlət Universiteti, 2013. s. 81-85
9. Nəcəf bəy Vəzirov yaradıcılığının ideya – bədii məziyyətləri / Doktorantlarin və gənc tədqiqatçıların XVII respublika elmi konfransı. Bakı şəh. 18-19 dekabr 2013-cü il. Bakı: Elm və təhsil, 2013, s. 265-266
10. Altun səltənəti Cəfər Cabbarlının gözü ilə / II İnternational Scientific Conference of YOUNG RESEARCHERS. Azerbaijan, Baku, 18-19 april, 2014. Bakı: Qafqaz Universiteti, 2014, s.256-257
11. Milli kimliyimizi milli ədədbiyyatımızda əks etdirən ayna-“Anamın kitabı” // Dil və ədəbiyyat, Bakı, 2015, № 3, s. 270 - 272
12. Zadəgan obrazları dramaturji kontekstdə / IV İnternational Scientific Conference of YOUNG RESEARCHERS. Azerbaijan, Baku, 29-30 april, 2014. Bakı: Qafqaz Universiteti, 2016, s.1172 - 1173
13. Zadəganlığın obrazlı təqdimatı (dramaturji müstəvidə) / “Birinci Türkoloji Qurultayın 90 illik yubileyinə həsr olunmuş “Müasir Türkologiya: dünən, bu gün və sabah (problemlər və perespektivlər)” Respublika elmi konfransının materialları. Bakı şəh. 28 dekabr 2016-cı il. Bakı: Elm və təhsil, 2016, s. 357-360

**Гейдарова Кёнуль Ильясхан гызы**

# ОБРАЗЫ АРИСТОКРАТОВ В АЗЕРБАЙДЖАНСКОЙ ДРАМАТУРГИИ: В КОНТЕКСТЕ СОЦИАЛЬНОЙ СРЕДЫ И НАЦИОНАЛЬНО-ДУХОВНЫХ ЦЕННОСТЕЙ (1890-1920-е годы)

## РЕЗЮМЕ

Диссертация посвящена анализу образов аристократов в азербайджанской драматургии 1890-1920- х г.г.

Диссертация состоит из "Введения", трех глав, "Заключения" и списка использованной литературы.

Во "Введении" обосновываются актуальность темы, научная новизна, теоретическая и практическая значимость работы; даются сведения о степени разработанности темы, об объекте, предмете, целях, задачах и методах исследования, о степени изученности темы, об апробации и структуре диссертации.

Первая глава диссертации «Азербайджанская аристократия и социальная среда» состоит из двух подглав: «Общественная среда, в которой создавались драматургические произведения», и «Женское бесправие и «власть денег» в аристократической среде». В этой главе дается панорама общественно-политической и литературно-культурной жизни исследуемого периода; параллельно рассматривается проблема «женское бесправие и власть денег» в аристократической среде.

Вторая глава «Образы аристократов как предмет драматургического конфликта» состоит из двух подглав: «Борьба старого и нового в аристократической среде» и «Трагидраматическое изображение аристократии в контексте национально-духовных ценностей». В этой главе на передний план выдвигается борьба старого с новым на семейно-бытовой почве; трагидраматическая презентация аристократии исследуется в контексте национально-духовных ценностей.

Третья глава «Представление образов аристократов в исторических драмах. Аристократы-«националисты» как драматургический образ» состоит из двух подглав: «Драматическое воплощение образов аристократов в исторических пьесах» и «Художественное отражение «национализма» в драматургических поизведениях». В этой главе рассматриваются проблемы драматургического воплощения образов аристократов в исторических пьесах и художественное отражение «национализма» в драматургических поизведениях.

В "Заключении" обобщаются основные результаты и выводы исследования.

**Heydarova Kenul Ilyaskhan**

# THE CHARACTERS OF ARISTOCRATS IN THE AZERBAIJANI DRAMATURGY: IN THE CONTEXT OF THE SOCIAL ENVIRONMENT AND NATIONAL-MENTAL VALUES (1890-1920-ies)

## SUMMARY

The dissertation deals with the analysis of the characters of aristocrats in the Azerbaijani dramaturgy of the 1890-1920-ies.

The dissertation consists of “Introduction”, three chapters, “Conclusion” and list of references.

The “Introduction” contains the substantiation of the urgency of the theme, scientific novelty, theoretical and practical significance of the work; the information about the degree of working out of the theme, subject, object, purpose, tasks, methods of the research, the level of study of the issue, about the appraisal and structure of the dissertation.

The first chapter of the dissertation “Azerbaijani aristocracy and social environment” consists of two subchapters: “The social environment of creation of dramas” and “Women's powerlessensss and “the power of money” in the aristocratic environment”. This chapter mainly presents the panorama of the social-political and library-cultural liFe of the studied period; alongside the problem of the women's powerlessensss and power of money in the aristocratic environment is considered.

The second chapter “The characters of aristocrats as a subject of dramatic conflict” consists of two subchapters: “The struggle between the old and the new in the aristocratic environment” and “Tragic-dramatic expression of aristocracy in the context of the national-spiritual values”. This chapter deals with the struggle between the old and new on the basis of the family and everyday life; the tragic-dramatic presentation of aristocracy is studied in the context of the national-spiritual values.

The third chapter “Presentation of the characters of aristocrats in the historical dramas. Aristocrats – “nationalists” as a dramatic character also consists of two subchapters: “Dramatic embodiment of aristocracy in the historical plays” and “ Artistic reflection of “nationalism” in the dramatic works”. This chapter deals with the problem of the dramatic embodiment of aristocracy in the historical plays and artistic reflection of “nationalism” in the dramatic works.

“Conclusion” contains the generalization of the main results and findings of the research.

Format 60x84 $^{1}/_{16}$
AMEA-nın mətbəəsində çap olunub.
Sayı: 100 nüsxə.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**КОНУЛЬ ИЛЬЯСХАН гызы ГЕЙДАРОВА**

# ОБРАЗЫ АРИСТОКРАТОВ В АЗЕРБАЙДЖАНСКОЙ ДРАМАТУРГИИ: В КОНТЕКСТЕ СОЦИАЛЬНОЙ СРЕДЫ И НАЦИОНАЛЬНО-ДУХОВЫХ ЦЕННОСТЕЙ (1890-1920-е годы)

**5716.01 – Азербайджанская литератуа**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени
доктора философии по филологии**

**БАКУ - 2018**